**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.1.29**

**YAŞAR RƏHİMOV**

# MUXTARİYYƏT ƏRƏFƏSİNDƏ NAXÇIVANIN SİYASİ VƏZİYYƏTİ MƏNBƏLƏRDƏ VƏ ARXİV SƏNƏDLƏRİNDƏ

*Ötən əsrin əvvəllərində Rusiyada baş verən fevral inqilabının qələbəsindən və oktyabr çevrilişindən sonra ucqarlarda da vəziyyət xeyli ağırlaşmışdı. Bu zaman imperiyanın tərkib hissəsi kimi Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da gərgin vəziyyət yaranmışdı. Muxtariyyət ərəfəsində Naxçıvan diyarında baş verən siyasi hadisələr, Andranik başda olmaqla erməni quldurlarının törətdikləri milli qırğınlar, bununla əlaqədar olaraq dəhşətli və faciəli şəkil almış ictimai və siyasi vəziyyət Cənubi Qafqaz hüdudları çərçivəsindən kənara çıxaraq beynəlxalq problemə çevrilmişdi. Törədilmiş milli qırğınlar nəticəsində diyarın təsərrüfat həyatı ciddi tənəzzülə uğramış, əhalinin sayı iki dəfə azalmış, hərbi əməliyyatlar kənd və şəhərlərin dağılmasına səbəb olmuşdu. Ona görə də Naxçıvan məsələsi beynəlxalq aləmi düşündürən mühüm bir problemə çevrilmişdi. Məqalədə muxtariyyət ərəfəsində Naxçıvan bölgəsinin keçdiyi mürəkkəb və çətin yola nəzər salınmış, Araz-Türk Cümhuriyyətinin yaranması, Naxçıvanın sovetləşməsi, qısa olaraq Naxçıvanın ərazi məsələsinin müəyyənləşməsində və muxtariyyət statusu əldə etməsində Moskva və Qars müqavilələrinin əhəmiyyəti məsələlərinə toxunulmuşdur.*

**Açar sözlər:** *siyasi vəziyyət, Naxçıvan, arxiv sənədləri, erməni hücumları, mənbə, Moskva və Qars müqavilələri.*

**Giriş.** Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsi muxtariyyət ərəfəsində ağır vəziyyətə düşmüşdü. Sosial-iqtisadi cəhətdən çətin vəziyyətdə olan bölgə daha bir bəla ilə-erməni quldurlarının əsassız ərazi iddiaları ilə üz-üzə qalmışdı. Naxçıvan, Şərur-Dərələyəz, Əlincəçay və Ordubad əraziləri üzərində "böyük Ermənistan" yaratmaq xəyalı ilə yaşayan ermənilər həmin əraziləri işğal etmək niyyətlərindən bir anlıq da olsa əl çəkmək istəmirdilər. İddia edilən "böyük Ermənistan" "dövləti"nin gerçəkləşməsi üçün başlanğıc olaraq Naxçıvanı hədəf seçmişdilər.

**1918-1920-ci illərdə Naxçıvanda hərbi-siyasi vəziyyət.** Araşdırılan arxiv sənədlərindən məlum olur ki, 1918-ci ilin əvvəllərindən başlayaraq 1920-ci ilin iyun ayına kimi başda Andranik Ozanyanın, Nijdenin, Dronun, Gibbonun, Doluxanovun və b. başçılıq etdiyi erməni quldur dəstələri tərəfindən təkcə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzasında 50-dən artıq müsəlman kəndlərinə basqınlar edilmiş, dağıdılmış, yandırılmış, kənd əhalisinin çoxu öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşlər [3, v. 103-105].

1918-ci il dekabr ayının 19-da erməni daşnakları Şərur bölgəsinə hücum edirlər. Ermənilərin qarşısını almaq üçün Bəhram xan Naxçıvanskinin komandanlıq etdiyi Naxçıvan taboru Dəmirçi tərəfdən hücum edib, külli miqdarda hərbi sursat, top, ərzaq və bir pulemyot qənimət almış, 20-30 nəfərə kimi erməni əsgərini məhv etmişlər. Ermənilər tab gətirməyərək geri çəkilmişlər [4, v. 42].

Bundan az sonra fəallaşan erməni qəsbkarları rus zabiti polkovnik Doluxanovun rəhbərliyi altında güclü silahlı dəstə təşkil edərək Vedibasar bölgəsinin kəndlərində insanlığa sığmayan və görünməmiş vəhşiliklər törədirlər. Cəfərqulu xan Naxçıvanski erməni quldur dəstələrinin bu hücumlarının müdafiəsiz dinc kəndliləri qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri aldığını bildirərək yazırdı: "...türklər getdilər, yenə bizdə müsəlman kəndlərinin məhv edilməsi, heç bir günahı olmayan müsəlman qadın və uşaqlarının döyülməsi və öldürülməsi qanlı səhnələri təkrar olunmuşdur. Yenə də İrəvan quberniyasında ermənilər tərəfindən qəddarcasına ölümə məhkum edilmiş on minlərlə müsəlmanın ürək parçalayan qışqırıq və nalələri göyə yüksəldi" [5, v. 2].

1919-cu ilin əvvəllərində bölgəyə edilən aramsız hücumlar daha təhlükəli xarakter almış və vəziyyəti xeyli ağırlaşdırmışdır. Ermənilər 1919-cu ilin yanvar-mart aylarında Naxçıvan, Şərur və Ordubad qəzalarına müxtəlif istiqamətlərdə hücumlar etmiş və böyük qırğınlar törətmişlər (6, v.3).

Naxçıvanı “bitərəf zona” elan edib Ermənistanın hakimiyyətinə vermək məqsədilə Naxçıvana gələn ingilis imperialistləri öz hərbi hissələrini Noraşen (indiki Şərur – Y.R.), Şahtaxtı, Naxçıvan, Culfa dəmiryol stansiyasında və Şərur-Dərələyəz şose yolunda yerləşdirmişlər. 1919-cu il may ayının 5-də Naxçıvan şəhərinə gələn ingilis generalı Devi Naxçıvan və Şərur qəzalarında yaşayan müsəlmanları yığıb mitinq keçirir və bildirir ki, müsəlmanlar Ermənistan hökumətinin rəhbərliyinə tabe olmalıdırlar [7, v. 154].

Ermənilərin Vedibasar, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrində törətdikləri qanlı cinayətlərlə bağlı bu bölgələr üzrə “müsəlman yerli cəmiyyətlərinin” keçirdikləri iclasın rəyasət heyəti tərəfindən Azərbaycan parlamentinə 16 iyul 1919-cu il tarixdə göndərdikləri məktublarında yazırdılar: “Bu rayonların əhalisinin xahişini və Müsəlman Milli Şurasının müsəlmanların soyqırımına etirazını nəzərə alaraq, Vedibasar, Şərur, Naxçıvan və Ordubad rayonlarının müsəlmanlarının birliyi erməni banditlərinin bu rayonlara soxulmasına qəti etirazını bildirir və oradan çıxmasını tələb edir. Biz həddindən artıq inanırıq ki, ingilis komandanlığı buna yol verməyəcək və hüququmuzu özümüzə qaytaracaq. Vedibasar, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad rayonları müsəlman yerlilərinin rəyasət heyəti” [8, v. 20-21].

1920-ci ilin mart ayından başlayaraq erməni qoşunları Vedi, Cüvə və Yaycıdan başlamış Ordubadadək ərazini işğal edib, intensiv surətdə hərbi hazırlıq işləri aparmışlar. Bu vaxt sərhəd sahələrə 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot və 26 top toplanmışdır. Dro, Nijde və başqa daşnak liderləri Zəngəzurun müdafiəsinə böyük əhəmiyyət verirdilər [9, v. 74].

1918-1920-cillərdə erməni daşnakları Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi, Əlincəçay və Gilançay boyunca 80-dən artıq kəndi yerlə yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar [10, v. 74]. Bu hücumlar 1921-ci ildə daha da intensivləşmiş və təhlükəli xarakter almışdır.

Beləliklə, 1918-1920-ci illərdə ermənilərin Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrinə hücumları müdafiəsiz dinc əhalini qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdır. 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73.727 nəfər azərbaycanlı ən vəhşi formada öldürülmüşdür. Özgə əraziləri və torpaqlarında yerləşdirilən və ermənilər tarix boyu xalqımıza qarşı məkrli siyasət yeritmişlər.

Göstərilən təzyiqlərə baxmayaraq, Naxçıvan əhalisi erməni daşnaklarına qarşı inadla mübarizə aparır, bölgəni qoruyub-saxlamaq üçün bütün imkanlardan istifadə edirdi. Müsəlman Milli Şurası Naxçıvanın təhlükəsizliyini təmin etmək üçün 1918-ci ilin noyabrında paytaxtı Naxçıvan şəhəri olan Araz-Türk Cümhuriyyətini yaratdı və hökumətin tərkibini formalaşdırdı. Hökumətin tərkibi sədrdən və 6 üzvdən ibarət idi. Ərazisinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Ordubad mahalı, Eçmiədzin qəzasının bir hissəsi, İrəvan qəzasının Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar və Mehri bölgələri daxil olan Araz-Türk Respublikasının sahəsi 8,7 min kvadrat kilometr, əhalisi bir milyon nəfərdən artıq idi.

Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışan Araz-Türk Cümhuriyyəti onunla birləşmək üçün yollar axtarırdı. Bu cümhuriyyət erməni quldurlarının basqınlarına lazımi cavab verir, Naxçıvanın təhlükəsizliyini təmin edirdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli 1919-cu ildə parlamentdəki çıxışında deyirdi ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi, “igid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar”.

1920-ci il iyulun 28-də Naxçıvan sovetləşdi, ertəsi gün-iyulun 29-da Naxçıvan İnqilab Komitəsi təşkil edildi və bu komitə Naxçıvanı Sovet Sosialist Respublikası adlandırdı. 1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri Mirzəli bəy Bektaşov Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub yazaraq Naxçıvanın Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğunu bəyan etdi.

Əgər 1918-1920-ci illərdə ermənilərin Naxçıvanı işğal etməklə bağlı cəhdləri daha çox hərbi və siyasi müstəvidə aparılmışdırsa, 1920-ci ilin aprelində bolşeviklərin Azərbaycanı işğal etməsindən sonra daşnak Ermənistanın ərazi iddiası mərkəzi hakimiyyətin regional siyasəti səviyyəsinə qaldırılmışdı. 1920-ci il noyabrın 29-da Azərbaycan torpaqlarında Ermənistan SSR-in yaradılmasından və ertəsi gün – noyabrın 30-da Nəriman Nərimanovun verdiyi bəyanatın qəzetlərdə saxtalaşdırılmış şəkildə nəşr edilməsindən sonra ermənilərin Naxçıvana iddiaları daha da genişləndi. Bu zaman V.Lenin, İ.Stalin və S.Orconikidze qanunsuz olaraq Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər. 1920-ci il dekabrın 2-də Gümrüdə Ermənistan hökuməti ilə Türkiyə arasında lanmış müqaviləyə əsasən Naxçıvan, Şərur və Şahtaxtıda səsvermə əsasında xüsusi idarəçilik yaradılmalı idi və Ermənistan onun işinə qarışmamağı öz öhdəsinə götürürdü. Ermənistan sovetləşdikdən sonra sovet rəhbərlərinin anti-Azərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisi Ermənistan SSR-ə verildi. Bundan sonra Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı salındı və bununla da, Naxçıvanın muxtariyyəti məsələsi gündəliyə gəldi. Bu məsələlərdən bəhs edən ulu öndər Heydər Əliyev qeyd edirdi ki, "əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".

1920-ci il dekabrın 5-də Naxçıvan əhalisinin etirazları başlandı. Naxçıvanda vəziyyət kəskinləşdiyinə görə respublika rəhbərliyi İnqilab Komitəsinin üzvü, Xalq Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvanın muxtariyyət statusu qazanmasında və daşnak təcavüzünə qarşı əhalinin təşkilatlanmasında Behbud ağa Şahtaxtinskinin xidmətləri mühüm rol oynadı. Belə ki, o, Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi məktub və teleqramlarda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və təkliflər vermişdir. Onun təklifləri ilə maraqlanan V.Lenin məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi.

Ermənilər öz iddialarından əl çəkmədikləri üçün Naxçıvan məsələsi ilə əlaqədar əhalinin fikrini öyrənmək məqsədilə Behbud ağa Şahtaxtinskinin təşəbbüsü ilə 1921-ci ilin əvvəllərində Naxçıvanda "Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilmiş rəy sorğusunda (referendumda) bölgə əhalisinin 90 faizdən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi" [11, v. 1].

**Moskva və Qars müqavilələri.** Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında Moskvada keçirilən görüşlərdə də əsas müzakirə obyekti olmuşdur. Türk heyəti 1920-ci il 2 dekabr tarixli Gümrü müqaviləsinin qüvvədə olduğunu müdafiə edərkən, rus nümayəndələri bu anlaşmanı, dolayısı ilə Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da imzalanmış 16 maddə və 2 əlavədən ibarət Moskva müqaviləsində təsbit edildi. Bu müqavilə, eyni zamanda Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri də həll etdi.

Naxçıvanın muxtariyyət qazanmasında mühüm xidmətləri olan şəxslərdən biri də Nəriman Nərimanovdur. O, 1921-ci ilin mayında beşinci Azərbaycan Sovetlər qurultayındakı çıxışında Moskva müqaviləsinə hökumətin münasibətini bildirərək demişdir: "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olundu. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik".

Naxçıvanın ərazi məsələsinin müəyyənləşdirilməsi və onun muxtariyyət statusu əldə etməsində Qars müqaviləsinin rolu danılmazdır. 1921-ci il sentyabrın 26-da başlayan Qars konfransı oktyabrın 13-də müqavilə bağlanması ilə başa çatdı. Konfransda Moskva müqaviləsinin maddələri bir daha təsdiq edildi. Qars müqaviləsi əvvəlki müqavilənin şərtlərini daha da möhkəmləndirdi. 20 maddədən və 3 əlavədən ibarət olan bu müqavilənin beşinci maddəsi Naxçıvanın gələcək statusundan bəhs edirdi: "Türkiyə hökuməti, sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin üçüncü əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar". Müqavilənin ratifikasiya olunmasını nəzərdə

tutan sonuncu – 20-ci maddədə ratifikasiya fərmanlarının mübadiləsinin İrəvanda həyata keçirilməsi qeyd olunmuşdu. Qars müqaviləsi onun imzalanmasından sonra dərhal qüvvəyə minən 6, 14, 15, 16, 18 və 19-cu maddələr istisna olmaqla ratifikasiya fərmanlarının mübadilə olunduğu andan qüvvəyə minməli idi. Müqavilənin fəaliyyət müddəti məhdudlaşdırılmamışdır [2, s. 323]. Müqavilənin müddətsiz imzalanması bölgənin gələcək taleyi üçün də böyük əhəmiyyət kəsb etmişdir. Ermənilər bu müqavilələrin ləğvini dəfələrlə yüksək kürsülərdən tələb etsələr də, "onsuz da müqavilələrin (Moskva və Qars müqavilələri) ləğvi coğrafi baxımdan sərhədləri dəyişməyəcək, çünki bu gün bütün sərhədlər BMT tərəfindən qəbul olunur" [1, s. 14].

**Nəticə.** Beləliklə, Naxçıvan əhalisinin müqaviməti və dönməz iradəsi, Türkiyənin ədalətli mövqeyi, Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. Lakin Naxçıvana muxtariyyət statusu 1921-ci ildə verilsə də, bu, faktiki olaraq 3 il sonra reallaşdırıldı. Hətta 1923-cü ildə Naxçıvan muxtar respublika statusundan aşağı olan muxtar diyara çevrildi. Bir müddət sonra – 1923-cü ilin dekabrında Naxçıvan diyarı Naxçıvan SSR-ə çevrildi. 1924-cü il fevralın 9-da isə Azərbaycan MİK Naxçıvan MSSR-in yaradılması haqqında qərar verdi.

## ƏDƏBİYYAT

1. Hacıyev İ. Moskva müqaviləsi və Naxçıvanın Azərbaycanın himayəsində muxtar ərazi statusu // AMEA Naxçıvan Bölməsinin Elmi Əsərləri, 2019, № 3, s. 9-16.
2. Naxçıvan ensiklopediyası: 2 cilddə. I c., Naxçıvan, 2005, 356 s.
3. Naxçıvan MRDA: F. 314, siy. 5a, iş 74, v. 103-105.
4. Naxçıvan MRDA: F. 314, siy. 5a, iş 74, v. 42.
5. Naxçıvan MRDA: F. 314, siy. 5a, iş 73, v. 2.
6. Naxçıvan MRDA: F. 314, siy. 5a, iş 73, v. 3.
7. Naxçıvan MRDA: F. 314, siy. 5a, iş 74, v. 154.
8. Naxçıvan MRDA: F. 314, siy. 5a, iş 71, v. 20-21.
9. Naxçıvan MRDA: F. 314, siy. 5a, iş 72, v. 74.
10. Naxçıvan MRDA: F. 582, siy. 1, iş 40, v. 74.
11. Naxçıvan MRMDA: F. 314, siy. 5, sax. v. 17, iş 18.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: yasarrahimov@yahoo.com***

**Yashar Rahimov**

## POLITICAL SITUATION IN NAKHCHIVAN ON THE EVE OF GAINING AUTONOMY IN SOURCES AND ARCHIVAL DOCUMENTS

Following the triumph of the February Revolution in Russia at the beginning of the last century and the October Revolution, the situation in remote regions significantly deteriorated. At that time, a tense situation developed in Azerbaijan, as in the entire empire, and in Nakhchivan, which was an integral part of it. The socio-political situation, which took a terrible and tragic turn when it came to political events in the Nakhchivan region, national pogroms committed by Armenian bandits, including Andranik, turned into an international issue that reached beyond the borders of the South Caucasus. As a result of the national pogroms, the country's economic life experienced a serious decline, the population was reduced by half, and military actions led to the destruction of villages and cities. As a result, the issue of Nakhchivan became a significant concern for the entire

world. The article examines the complex and difficult path of the Nakhchivan region on the eve of obtaining autonomy, the creation of the Araz-Turkic Republic, the Sovietization of Nakhchivan, and the brief significance of the Moscow and Kars agreements in determining the territorial issue of Nakhchivan and obtaining the status of autonomy.

**Keywords:** *political situation, Nakhchivan, archival documents, Armenian attacks, source, Moscow and Kars agreements.*

**Яшар Рагимов**

## ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В НАХЧЫВАНЕ НАКАНУНЕ ПОЛУЧЕНИЯ АВТОНОМИИ В ИСТОЧНИКАХ И АРХИВНЫХ ДОКУМЕНТАХ

После победы Февральской революции в России в начале прошлого века и Октябрьского переворота ситуация в отдаленных районах значительно ухудшилась. В это время в Азербайджане, как и во всей империи, и в Нахчыване, являвшемся его неотъемлемой частью, сложилась напряженная ситуация. Накануне независимости политические события в Нахчыванском регионе, национальные погромы, учиненные армянскими бандитами, в том числе Андраником, общественно-политическая ситуация, принявшая в связи с этим ужасную и трагическую форму, превратились в международную проблему, выходившую за рамки границ Южного Кавказа. В результате национальных погромов экономическая жизнь страны пережила серьезный упадок, население сократилось вдвое, военные действия повлекли за собой разрушение деревень и городов. Поэтому вопрос Нахчывана стал важной проблемой, беспокоившей международный мир. В статье рассматривается сложный и трудный путь Нахчыванской области накануне получения автономии, создание Аразо-Тюркской Республики, советизация Нахчывана, а также краткое значение Московского и Карсского соглашений в определении территориального вопроса Нахчывана и получение статуса автономии.

**Ключевые слова:** *политическая ситуация, Нахчыван, архивные документы, нападения армян, источник, Московское и Карсское соглашения.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 17.01.2025**
**Son variant 17.02.2025**